**TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BEYNƏLXALQ SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASI**

**Qazaxıstan Respublikası Parlamenti Senatının**

**üzvlərinin seçkiləri – 28 iyun, 2017-ci il**

---

# RƏY

Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyinin dəvəti ilə TürkPA Beynəlxalq Seçki Müşahidə Missiyası ilk dəfə 28 iyun, 2017-ci ildə Qazaxıstan Respublikası Parlamenti Senatına (Yuxarı Palata) keçirilən seçkilərin qısa müddətli müşahidəsini həyata keçirmişdir.

Bu seçkilər üçün əsas qanunvericilik "Qazaxıstan Respublikasında Seçkilər haqqında" Qazaxıstan Respublikası Konstitusiya Qanunudur (1995-ci il, son düzəliş 03.02.2011, № 404-IV).

Azərbaycan Milli Məclisinin üzvü Sədaqət xanım Vəliyeva, Qırğızıstan Respublikası Joqorku Keneşinin üzvü cənab Torobay Zulpukarov və Türkiyə Böyük Millət Məclisinin üzvü cənab Mustafa İsendən ibarət olan TürkPA müşahidə missiyasını TürkPA Katibliyinin nümayəndələri müşayiət etmişdir.

Mərkəzi Seçki Komissiyası (MSK) davam edən seçki kampaniyası barədə məlumat vermişdir; ilkin olaraq 89 nəfər namizədliyini irəli sürmüş, onlardan 52 nəfər qeydiyyata alınmış və nəticədə 38 namizəd Senatda 16 yer üçün səsverməyə qalmışdır.

MSK 288 xaricim üşahidəçini, Qazaxıstan Xarici İşlər Nazirliyi isə seçkiləri işıqlandıracaq 116 xarici mətbuat nümayəndəsini qeydə almışdır.

Seçki günü – 28 iyunda –səhər TürkPA müşahidəçiləri digər yerli və beynəlxalq seçki müşahidəçiləri ilə birgə Astana Akimatına (bələdiyyə) gedərək 25 nəfərdən ibarət Astana maslixatı üzvləri tərəfindən iki namizəd arasında seçim etmələrini müşahidə etmişdir. Müşahidəçilər bilavasitə səsvermə və səslərin sayılmasını izləmişdir.

TürkPA müşahidə qrupu Qazaxıstan Respublikası Parlamenti Senatına keçirilən seçkilərin Qazaxıstan milli qanunvericiliyi və beynəlxalq seçki standartlarına uyğun olduğu qənaətinə gəlmişdir.